International Centre for Migration Policy Development

MOBILAZE
Bringing Azerbaijani and EU citizens closer together

# Azərbaycanda readmissiya və reinteqrasiya məsələlərinin təhlilinə dair hesabat

Dekabr 2016

This project is funded by the European Union

# Minnətdarlıq

Hazırkı hesabat Avropa İttıfaqının (Aİ) maliyyələşdirdiyi "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" (MOBILAZE) layihəsinin Geri Qayıdış və Reinteqrasiyaya dair 5-ci Komponenti çərçivəsində işlənib hazırlanmışdır. Hesabatın tərtib olunmasında məqsəd Avropadan Azərbaycana readmissiya edilən şəxslərin vəziyyətini öyrənmək və onların cəmiyyətə uğurlu reinteqrasiyası üçün tövsiyələrin hazırlanmasıdır.

Hesabat Maastrixt İdarəçilik Məktəbi və Birləşmiş Millətlər Universiteti - İnnovasiyalar və Texnologiyalar üzrə Maastrixt İqtisadiyyat və Sosial Elmi-Tədqiqat İnstitutunu (UNU-MERIT) təmsil edən Dr. Melisa Siqel tərəfindən hazırlanmışdır. Müəllif layihənin tərəfdaş ölkələrini təmsil edən ekspertlərin – Niderland Krallığı Təhlükəsizlik və Ədliyyə Nazirliyinin Repatriasiya və Geri Qaytarma Xidmətindən Tomas Yakobse və Bolqarıstan Respublikası Əmək və Əhalinin Sosial Siyasət Nazirliyindən Hristo Simeonov, habelə Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) Vyana və Bakıdakı heyətinin töhfəsini yüksək qiymətləndirir.

Gonzagagasse 1
A-1010 Vyana
Avstriya
www.icmpd.org

Səməd Vurğun 43, World Business Centre, 18-ci mərtəbə
AZ 1014 Bakı
Azərbaycan
www.facebook.com/ICMPDinAzerbaijan/

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz
Vyana, Avstriya

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz
Bakı, Azərbaycan

Bütün hüquqlar qorunur. Müəlliflik hüququ sahiblərinin icazəsi olmadan bu nəşrin heç bir hissəsi, hər hansı bir formada və ya elektron yaxud mexaniki vasitələrlə, o cümlədən fotosurət, yazı və ya hər hansı informasiya saxlama və bərpa sistemi vasitəsilə yenidən hazırlana, onun surəti çıxarıla və ya ötürülə bilməz.

Bu hesabat Avropa Komissiyasının dəstəyi ilə dərc edilmişdir. Yalnız MSİBM bu hesabatın məzmununa məsuliyyət daşıyır və burada qeyd olunanlar heç bir halda Avropa Komissiyasının mövqeyinin ifadə olunması kimi qəbul olunmamalıdır.

## Mündəricat


I. Layihə haqqında məlumat və hesabatın məqsədi ........ 4

II. Əsas nəticələr ........ 6

III. Tövsiyələr ........ 9

IV. ƏLAVƏ: Azərbaycanda reinteqrasiyaya dair təlimatlar üçün təklif ........ 11

# I. Layihə haqqında məlumat və hesabatın məqsədi

“Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” (MOBILAZE) layihəsi 2013-cü il dekabrın 5-də Brüssel şəhərində imzalanmış “Azərbaycan Respublikası, Avropa İttifaqı və İttifaqın iştirakçı üzv dövlətləri arasında Yerdəyişmə üzrə Tərəfdaşlıq barədə” Birgə Bəyannamənin icra olunması istiqamətində Azərbaycan Respublikasının nail olduğu davamlı irəliləyişin məntiqi nəticələrindən biridir. Miqrasiya idarəçiliyi sahəsində birgə prioritetləri nəzərə alaraq, sözügedən layihə üzrə təklif Azərbaycan Respublikasının miqrasiya idarəçiliyi məsələləri ilə məşğul olan dövlət orqanları və Avropa İttifaqının aşağıda qeyd olunan üzv dövlətlərindən olan icraçı tərəfdaşlarla ilə yaxından əməkdaşlıq etməklə Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) tərəfindən işlənib hazırlanmışdır.

Avropa İttifaqının 7 üzv dövlətindən olan 9 icraçı tərəfdaş qurumla, konkret olaraq, Bolqarıstan Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi, Çexiya Respublikasının Daxili İşlər Nazirliyi, Latviya Respublikası Daxili İşlər Nazirliyinin Vətəndaşlıq və Miqrasiya Məsələləri İdarəsi, Litva Respublikası Daxili İşlər Nazirliyinin Miqrasiya İdarəsi və Dövlət Sərhəd Mühafizəsi Xidməti, Niderland Krallığı Təhlükəsizlik və Ədliyyə Nazirliyinin İmmiqrasiya və Naturalizasiya Xidməti və Repatriasiya və Geri Qaytarma Xidməti, Polşa Respublikasının Daxili İşlər və Administrasiya Nazirliyi və Slovakiya Respublikası Daxili İşlər Nazirliyinin Miqrasiya İdarəsi ilə yaxından əməkdaşlıq etməklə MSİBM tərəfindən həyata keçirilən 36 aylıq “MOBILAZE” Layihəsinin icrasına 2016-cı il yanvarın 15-də start verilmişdir.

Azərbaycan Respublikasında əsas tərəfdaşlar – Yerdəyişmə üzrə Tərəfdaşlığın icrasında koordinator olan Xarici İşlər Nazirliyi; Dövlət Miqrasiya Xidməti, Dövlət Sərhəd Xidməti və Dövlət Sərhəd Xidmətinin Akademiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi və Bakı Dövlət Universitetidir.

Layihənin əsas məqsədi milli miqrasiya siyasətinin hazırlanması və tətbiq edilməsi sahəsində Hökumətin potensialının artırılmasına xüsusi diqqət yetirməklə Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsini dəstəkləməkdən ibarətdir.

Layihənin beş komponenti ilə əlaqədar xüsusi məqsədlər bunlardır:

- Azərbaycan Respublikası Hökumətinin müvafiq orqanlarının monitorinq, təhlil və proqnozlaşdırma potensialını, habelə miqrasiya siyasətinin işlənib hazırlanması işini təkmilləşdirmək (Komponent 1);
- Azərbaycandan və Azərbaycana istiqamətlənən qanuni əmək miqrasiya proseslərinin və ticarətlə bağlı yerdəyişmənin idarə olunması işini gücləndirmək və Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında yerdəyişmə ilə əlaqədar əhalinin maarifləndirilməsini artırmaq (Komponent 2);
- Sənədlərin təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının potensiallarını artırmaq (Komponent 3);
- Avropa İttifaqı standartlarına və beynəlxalq standartlara uyğun milli sığınacaq siyasətini təkmilləşdirmək və həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının potensiallarını gücləndirmək (Komponent 4);
- Geri qayıdan vətəndaşların (könüllü qayıdanların və readmissiya edilmiş qeyri-qanuni miqrantların) davamlı reinteqrasiyasını təmin etmək məqsədilə Azərbaycan

Respublikası mərkəzi və regional dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının potensiallarını gücləndirmək (Komponent 5). Bu Komponentin xüsusi məqsədi geri qayıdan vətəndaşların ehtiyaclarının və prioritetlərinin düzgün mənimsənilməsini təmin etmək və bu cür ehtiyacların milli səviyyədə və ya tərəfdaş olan Aİ-yə üzv dövlətlərlə əməkdaşlıq etməklə aradan qaldırılması üçün hökumət və qeyri-hökumət qurumlarının potensialını artırmaqdır.

Bu Komponentin fəaliyyətlərinə aşağıdakılar aiddir:

- Geri qayıdanların ehtiyaclarının və prioritetlərinin qiymətləndirilməsi və bu barədə mərkəzi və regional dövlət orqanları və qeyri-hökumət təşkilatları arasında məlumatlılığın artırılması;
- Qayıdışdan sonrakı dəstək mexanizmlərinin müəyyən edilməsi və müvafiq istiqamətləndirmə proseslərinin həyata keçirilməsi üçün tədbirlərin təklif edilməsi;
- Qayıdış və reinteqrasiya tədbirlərinin həyata keçirilməsi üçün dövlət orqanları və vətəndaş cəmiyyətinin potensiallarının artırılması;
- Mövcud siyasətlər və ən yaxşı təcrübə əsasında geri qayıdanlar üçün maarifləndirmə işinin təkmilləşdirilməsi.

Hesabatın tərtib olunmasında məqsəd Avropadan Azərbaycana readmissiya edilən şəxslərin vəziyyətini öyrənmək və onların cəmiyyətə uğurlu reinteqrasiyası üçün tövsiyələrin hazırlanmasıdır.

Hesabata daxil edilən məlumatlar MSİBM və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin (DMX) hazırladığı və təqdim etdiyi analitik icmal sənədlərə və konkret hallara, eləcə də 2016-cı il noyabrın 16-da Bakıda əlaqədar tərəflərlə keçirilən bir günlük fokus qrup müzakirələrinə əsaslanır. Fokus qrup müzakirələrində Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, Bakı şəhər İcra Hakimiyyətinin, “ASAN” Xidmətin, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin, “Həyat” Humanitar Dəstək İctimai Birliyinin, Beynəlxalq Miqrasiya Təşkilatının, Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin, MSİBM-in nümayəndələri və beynəlxalq ekspertlər bir araya gəlmişdilər. Nəhayət, 2016-cı il noyabrın 17-də bölgələrdə mövcud dəstək mexanizmlərini öyrənmək məqsədilə Sumqayıt şəhərinə səfər təşkil edilmişdir. Məlumatın bu cür toplanılması üsulu əvvəlcədən hazırlanmış əsas mövzular üzrə ortaya çıxan məsələləri və problemləri müzakirə etmək üçün məqsədəyönlü seçilmiş iştirakçıların toplandığı sürətli qiymətləndirmə, yarı-strukturlaşdırılmış məlumat toplanılması metodu kimi səciyyələnə bilər.

## II. Əsas nəticələr

“Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında 2014-cü il fevralın 28-də imzalanmış icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında” Saziş 2014-cü il sentyabrın 1-də qüvvəyə minmişdir. Sazişdə reinteqrasiya məsələləri ilə bağlı hər hansı bir müddəa yoxdur. 2014-cü il dekabrın 3-də imzalanmış və 2015-ci il iyunun 1-də qüvvəyə minmiş Norveç Krallığı ilə Azərbaycan Respublikası arasında bənzər saziş isə sadəcə olaraq daha sadələşdirilmiş sənəddir.

Indiyədək (sazişlərin icrası çərçivəsində, 2014-cü ilin sonlarından 2016-cı il dekabrın 21-dək) Avropadan Azərbaycana readmissiya edilən şəxslərin ümumi sayı Azərbaycan Hökumətinin təqdim etdiyi məlumata görə **193 nəfər** təşkil etmişdir. Halbuki, Avropa Statistika Qurumunun (Eurostat) məlumatlarına əsasən, geri qayıdanlar 2014-cü ildə **455 nəfər,** 2015-ci ildı isə **485 nəfər** olmuşdur. Azərbaycan Hökuməti və Eurostat-ın rəqəmləri arasındakı fərq ondan ibarətdir ki, Eurostatın statistik rəqəmləri geri qayıdışın digər formalarını da – deportasiya, ölkədən çıxarılma, könüllü qayıdış, o cümlədən readmissiyanı əhatə edir. Hər iki statistik mənbədə ən çox geri qayıdan şəxslər Almaniya və İsveçdən gəlmişlər. Avropadan geri qayıdan vətəndaşların sayı kəskin olaraq yüksək olmasa da, readmissiya prosesinin davam edəcəyi bəllidir. Buna görə də, bu şəxslərin uğurlu geri qayıdışı və reinteqrasiyası üçün hələ ki ölkədə mövcud olmayan çərçivə mexanizminin yaradılması zəruridir.

Hazırki sistemə əsasən, readmissiya edilmiş şəxslərin qarşılanması məqsədi ilə hava limanında DMX əməkdaşları tərəfindən müvafiq tədbirlər görülür, onlarla təyin edilmiş qaydada müsahibə aparılaraq sorğu vərəqəsi doldurulur. Müsahibə zamanı readmissiya edilmiş şəxslərin mövcud ehtiyacları, onları göndərən qurumdan və ya müşayiət edən heyətdən hər hansı bir məsələ ilə bağlı şikayətlərinin olub-olmaması barədə məlumat alınır. Müəyyən edilən ehtiyaclardan asılı olaraq, konkret hallarda geri qayıdan şəxslər əlaqədar Nazirliyə və ya digər dövlət orqanına istiqamətləndirilir. Buna baxmayaraq, istiqamətləndirmə nəticəsində müvafiq qurum tərəfindən şəxsin işinə baxılması müəyyən vaxt apara bilər. Belə ki, reinteqrasiya üçün təlimatlara dair müfəssəl qanunverici bazanın olmaması əlaqələndirmə problemlərinə və bu məsələlər üzrə hər bir qurumda bir nəfər əlaqələndirici şəxsin və ya struktur bölmənin olmamasına dəlalət edir. Müzakirələrdən aydın oldu ki, readmissiya edilmiş şəxslərin cəmiyyətə reinteqrasiyanı həyata keçirmək istiqamətində DMX və digər orqanlar arasında çox az əlaqələr qurulmuşdur. Bu da öz növbəsində, səmərəli və effektli istiqamətləndirməyə maneə törədir.

Fokus qrup müzakirələrində aşağıdakı narahatlıq doğuran əsas istiqamətlər müəyyənləşdirilmişdir:

- **Müalicə almaq üçün yardıma ehtiyacı olan** və ya **fəaliyyət qabiliyyəti məhdud olan şəxslərlə** bağlı hallar;
- Readmissiya proseduru zamanı **insan hüquqlarının pozulması** ilə bağlı hallar;
- **Təhsil ehtiyacları olan** şəxslərlə bağlı hallar;
- **Məşğulluq** və **sosial yardıma ehtiyacı olan** şəxslərlə bağlı hallar;
- Ölkədə yaxın qohumları olmadığı üçün **yaşayış yeri/mənzil ehtiyacı olan** şəxslərlə bağlı hallar.

Əksər istiqamətlər üzrə az sayda hallar/şəxslər müəyyənləşdirilmişdir. Narahatlıq doğuran ən geniş istiqamət müalicə almaq üçün/tibbi yardıma ehtiyacı olan şəxslər (31 nəfər) və fəaliyyət

qabiliyyəti məhdud olan şəxs (1 nəfər) müəyyənləşdirilmişdir. Readmissiya proseduru zamanı Aİ ÜD-lərin səlahiyyətli qurumları tərəfindən insan hüquqlarının pozulması ilə bağlı şikayətlər 10 nəfərdən az idi. Lakin DMX-nın MSİBM-ə fokus qrup müzakirəsindən sonra təqdim etdiyi məlumata görə belə hallar yenidən müəyyən edilmişdir. Əmək bazarına çıxış imkanları ilə bağlı məsələlər 11 nəfərə aid idi. 6 şəxsin təhsil ilə bağlı ehtiyacları müəyyənləşdirilmişdir. 2016-cı ilin sonunadək 21 şəxslə bağlı müvəqqəti yaşayış yeri ilə təmin olunma məsələsi müəyyənləşdirilmişdir.

Bir qayda olaraq, **müayinə və müalicə almaq üçün yardıma ehtiyacı** olan şəxslər **Səhiyyə Nazirliyinə** istiqamətləndirilmiş və ya onlar barədə müvafiq məktublar ünvanlanmışdır. Lakin, birbaşa əlaqələndirici şəxsin olmamasına görə Səhiyyə Nazirliyi tərəfindən müvafiq tədbirlərin görülməsinə tələb olunandan daha çox vaxt sərf olunur.

**İnsan hüquqları pozuntularına yol verilmə** ilə bağlı müraciətlər Aİ ÜD-in qayıdışa cavabdeh qurumlarının əməkdaşları tərəfindən readmissiya prosedurundan qabaq və otürülmə zamanı readmissiya edilmiş şəxslərə münasibətdə kobud rəftardan, onlara fiziki güc tətbiq etməklə bədən xəsarəti yetirilməsindən, özlərinə məxsus əşyalarının və pullarının götürülməsindən, həmçinin telefondan istifadələrinə icazə verilməməsindən ibarət idi. Gorünür ki, insan hüquqlarının pozulması hallarında kömək üçün hara və necə müraciət edib-edilməməsi məsələsi labüddür. Buna baxmayaraq, bu cür konkret hallar üzrə Azərbaycan Respublikası dövlət orqanları tərəfindən məlumatların necə toplanılması, hesabat verilməsi və nəzarətə götürülməsi barədə hər hansı müəyyən edilmiş mexanizm mövcud deyil.

**Əmək bazarına** çıxış imkanları ilə bağlı hallarda geri qayıdanlara əsasən yerli əmək bazarında mövcud iş yerləri, kvalifikasiyaların artırılması və işsizlik müavinətləri (geri qayıdanlar Azərbaycanda son illər ərzində iş stajı/tarixçəsi olmadığı səbəbindən işsizlik müavinəti ala bilmirlər) barədə məlumatlar təqdim edilir. Lakin buna baxmayaraq, geri qayıdanlar rəsmi olaraq minimum gəlir həddi (sosial yardım) almaq hüququna malikdirlər. Yuxarıda qeyd edilən digər məsələlər kimi burada da geri qayıdan şəxslərin işlə təmin olunmaları üçün hara və necə müraciət etmələri barədə müəyyən edilmiş mexanizm yoxdur. Geri qayıdanlara yardım edə biləcək faydalı qurum – mövcud iş yerləri əsasında işaxtaranlara, o cümlədən geri qayıdanlara münasib işin seçilməsi və işaxtaranlar üçün təlim kurslarının təşkil edilməsinə məsul Dövlət Məşğulluq Xidmətidir. **Məşğulluq mərkəzlərinin xidmətləri barədə məlumat ölkəyə gələn kimi geri qayıdanlara təqdim edilməlidir.** Digər tərəfdən, Məşğulluq Xidmətinin əməkdaşları geri qayıdanların konkret vəziyyəti barədə məlumatlandırılmalı və onların ehtiyaclarına müvafiq olaraq tədbir görmək üçün hazır olmalıdır. Bu isə, Azərbaycanda reinteqrasiya üçün çərçivənin işlənib hazırlanması və həyata keçirilməsinə zərurət yaradır.

**Təhsil məsələləri** ilə bağlı hallar uşaqların təhsil ehtiyacları, o cümlədən onların təhsilinin davam etdirilməsi, yerli məktəblərə qəbulu və müvafiq dil kurslarına cəlb edilməsi, böyüklərin isə müvafiq dil kurslarına və peşə təhsilinə cəlb edilməsi ilə bağlı idi. Kvalifikasiyaların tanınması və bəzi hallarda, aşağı və orta ixtisas təhsili geri qayıdanlar üçün problem ola bilər. Bununla əlaqədar konkret yanaşmanın işlənib hazırlanmasına ehtiyac vardır.

Geri qəbul edilərkən **yaşayış yeri** olmadığı üçün və ya mənzil kirayələmək üçün maddi imkanı olmayan şəxslər müəyyənləşdirilmiş və onlara müvəqqəti əsasda sosial mənzillərin təmin edilməsi imkanları müzakirə edilmişdir. Digər vacib məqam sosial mənzillərə ehtiyacı olan geri qayıdan şəxslərin vəziyyətini və durumunu əsaslandırmaqdır. Bu baxımdan, geri

qayıdanlar arasında həssas kateqoriyaya aid qruplara (uşaqlı ailələr, işsizlər, müalicə almaq üçün yardıma ehtiyacı olanlar, yaşlılar, tənha valideynlər və s.) xüsusi diqqət göstərilməlidir. Hal-hazırda, bu cür şəxslərin qayğısına qalmaq üçün mövcud istiqamətləndirmə mexanizmi yoxdur. Belə şəxslərin müvəqqəti yaşayış yeri ilə təmin olunması ilə bağlı müəyyən təcrübə mövcud idi, lakin bu yardım beynəlxalq layihələr vasitəsilə həyata keçirilmiş və maliyyələşdirilmə bitdikdən sonra bu təcrübə də dayandırılmışdır.

Əlavə olaraq, **şəxsiyyət vəsiqələrinin verilməsi və qeydiyyat** məsələləri də fokus qrup iclasında müzakirə edilmişdir. Aydındır ki, şəxsiyyət vəsiqələri və ya yaşayış yeri və olduğu yer üzrə qeydiyyat olmadıqda geri qayıdan şəxslərin yuxarıda qeyd edilən reinteqrasiya xidmətlərinə çıxış imkanları olmur. Bu məsələlər Daxili İşlər Nazirliyinin səlahiyyətinə aiddir. Buna görə də, sözügedən Nazirliyə istiqamətləndirmə məsələsi reinteqrasiya üçün çərçivə mexanizmində öz əksini tapmalıdır. Qeyd etmək lazımdır ki, surətli şəkildə şəxsiyyət vəsiqəsinin verilməsi və ya şəxsin qeydiyyata alınması (əgər şəxsin yaşayış yeri yoxdursa, polis məntəqəsində qeydiyyata alınır) mümkündür, lakin geri qayıdan şəxs barədə növbəti addımlar barədə dəqiq məlumatlar qabaqcadan təqdim edilməlidir.

Onu da qeyd etmək vacibdir ki, indiyədək bu sahələrdən hər biri üzrə şikayətləri olan az sayda şəxs müəyyənləşdirilmişdir. Müalicə almaq və yaşayış yeri olmadığı üçün yardıma ehtiyacı olan şəxslər istisna təşkil edə bilər. Belə ki, ümumi rəqəm az olduğuna görə, tibbi və yaşayış yeri ehtiyacları olan şəxslərin sayı 2016-cı ilin sonunadək müəyyənləşdirilən konkret hallar üzrə 50%-dən artıqdır. Readmissiya prosesinin icrası davam etməkdədir və geri qayıdanların əlavə ehtiyaclarını nəzərə almaq üçün səmərəli prosedurun işlənib hazırlanması zəruridir.

2013-cü il yanvar ayından etibarən Azərbaycanda ölkə üzrə 11 “ASAN xidmət” (“ASAN” abbreviaturu ingilis dilində “Azerbaijan Service and Assesment Network” deməkdir) mərkəzləri təsis edilmişdir. Hər bir ASAN mərkəzdə vətəndaşlara (vergilərin ödənilməsi, doğum şəhadətnamələrinin alınması, şəxsiyyəti təsdiq edən sənədlərin verilməsi və s.) xidmət verən aşağıdakı 11 nazirlik və ya dövlət orqanı fəaliyyət göstərir:

- Ədliyyə Nazirliyi,
- Daxili İşlər Nazirliyi,
- Vergilər Nazirliyi,
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu,
- İqtisadiyyat Nazirliyi,
- Əmlak Məsələləri Dövlət Komitəsi,
- Dövlət Gömrük Komitəsi,
- Dövlət Miqrasiya Xidməti,
- Milli Arxiv İdarəsi,
- Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti.

“ASAN xidmət” mərkəzlərinin mövcud olmadığı bölgələrdə isə mobil “ASAN xidmət” səyyar xidmət avtobusların vasitəsilə fəaliyyət göstərir. Burada yuxarıda sadalanan 4 dövlət orqanı (Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondu və Əmlak Məsələləri Dövlət Komitəsi) təmsil olunur. Ümumilikdə, Azərbaycan Respublikası vətəndaşları “vahid pəncərə” yanaşmasının tətbiq olunduğu “ASAN xidmət” mərkəzlərinin fəaliyyətindən olduqca razıdır. Belə ki, vətəndaşlar artıq müxtəlif dövlət idarələrinə getmək məcburiyyətində qalmır və onların müraciətlərə peşəkarcasına və səmərəli qaydada baxılır. Gələcəkdə “ASAN xidmət” mərkəzlərinin sayının

artırılması nəzərdə tutulur. Bu ASAN mərkəzlərinin xidmətlərindən təkcə yerli əhali yox, həm də geri qayıdan vətəndaşlar da öz ehtiyacları üçün istifadə edə bilərlər. Halbuki, geri qayıdan şəxslər bu cür xidmət mərkəzlərinin fəaliyyəti barədə məlumatlı olmaya bilər, çünki “ASAN xidmət” mərkəzlərinin fəaiyyəti Azərbaycan üçün nisbətən yenidir. Bir çox readmissiya edilən şəxslər isə ölkədən uzun illər uzaqda yaşamışlar. Məsələn, Bakıdan kənar bölgələrə - Sumqayıta səfər edərkən “ASAN xidmət” mərkəzinin əməkdaşları geri qayıdanlarla bağlı təcrübələrinin olmadığını vurğulamışlar. **Buna görə də, bu məlumatın ölkəyə gələn kimi geri qayıdanlara təqdim olunması vacibdir.** Buna baxmayaraq, “ASAN xidmət” mərkəzlərində təmsil olunan dövlət orqanlarının əməkdaşları geri qayıdan şəxs müraciət etdiyi hallarda nə etmək lazım olduğunu bilməli və ya ən azından müvafiq nazirlik və ya dövlət orqanının məsul idarəsindən məsləhət almaq imkanına malik olmalıdır.

## III. Tövsiyələr

Nəticələrdən irəli gələn əsas tövsiyələr, konkret olaraq əlaqələndirmə, informasiya mübadiləsi, habelə readmissiya və reinteqrasiya üçün aydın çərçivə mexanizminin işlənib hazırlanması ilə bağlıdır.

1. Aydındır ki, hal-hazırda readmissiya edilmiş şəxslərin reinteqrasiyası üçün çərçivə mexanizminə ehtiyac duyulur. Burada, DMX aparıcı qurum kimi digər müvafiq nazirliklər və orqanlarla əlaqələndirmə işini aparmalıdır. İlk növbədə, **nazirliklər və müvafiq orqanların hər birində** daha səmərəli əlaqə kanalları yaratmaq və problemlərin həlli yolları üçün **əlaqələndirici şəxslər (struktur bölmələr)** təyin edilməlidir. Aidiyyəti məsələlər barədə məlumatlı olmaq və informasiya mübadiləsini təmin etmək məqsədilə əlaqələndirici şəxslər işçi qrup şəklində DMX ilə mütəmadi olaraq toplanmalıdırlar. Artıq bu istiqamətdə ilk addımlar atılmışdır: DMX, bütün aidiyyəti dövlət orqanlarından geri qayıdanların istiqamətləndirilməsinə, həmçinin ölkədə reinteqrasiya üçün çərçivə mexanizminin işlənib hazırlanmasına cavabdeh əlaqələndirici şəxsləri müəyyənləşdirmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə rəsmi müraciət göndərmişdir.

   Hesabatın Əlavəsində göstərilən sxem Azərbaycanda reinteqrasiya yardımına dair təlimatlar üçün əsas kimi istifadə oluna bilər. Sxem, fokus qrup iclasında geri qayıdanların ehtiyaclarına dair müzakirə olunan məsələlərə əsaslanır. Beləliklə, reinteqrasiyaya dair təlimatlar aşağıdakılardan ibarət olmalıdır:

   **I. Giriş;**
   **II. Readmissiya prosesi və geri qayıdan şəxslərin qeydiyyatı;**
   **III. Bütün geri qayıdan şəxslərə məlumat dəstəyinin göstərilməsi;**
   **IV. Geri qayıdan şəxslərə (ehtiyaclara görə təsnif olunmuş qruplar üzrə) xüsusi dəstəyin göstərilməsi:**
   a) geri qayıdan şəxslərin işlə təmin olunmasına yardım etmək üçün əməkdaşlıq;
   b) geri qayıdan şəxslərin tibbi yardım ilə təmin edilməsi üçün əməkdaşlıq;
   c) geri qayıdan şəxslərə şəxsiyyət vəsiqələrinin verilməsi və onların qeydiyyatını təmin etmək üçün əməkdaşlıq;
   d) geri qayıdan şəxslərin təhsil ehtiyaclarını dəstəkləmək üçün əməkdaşlıq;

e) geri qayıdan şəxslərin yaşayış yeri ilə təmin olunması üçün əməkdaşlıq;

f) geri qayıdan şəxslərin insan hüquqlarının müdafiə olunması üçün əməkdaşlıq;

**V. Nəticələr.**

MOBILAZE layihəsi təlimatların işlənib hazırlanmasında lazımi dəstəyi göstərə bilər.

1. İnformasiya mübadiləsi geri qaytarılan şəxsin ölkəyə gəlişindən həm əvvəl, həm də sonra görüləcək işlərin təmin edilməsi baxımından vacib sayılan sahədir. Geri qaytarılan şəxslərin hər biri barədə məlumatlar mövcuddur, çünki həmin şəxslər barədə sorğu onlar readmissiya edilməmişdən qabaq göndərilir. Həmin şəxslərin qayıdışına daha hazırlıqlı olmaq üçün geri qaytarılan şəxslərlə bu məlumatların yoxlanılması və tutuşdurulması vacibdir. Buna görə də, **göndərən ölkələrin hər biri ilə**, xüsusilə Almaniya və İsveç ilə geri qayıdan şəxslərin daha səmərəli şəkildə ötürülməsini təmin etmək məqsədilə **işçi qaydada əlaqələrin yaradılması** və ya **xüsusi əlaqələndirici şəxlərin müəyyənləşdirilməsi** tövsiyə olunur.

2. **DMX əməkdaşları tərəfindən ilkin müsahibə aparılarkən** "ASAN xidmət", habelə səhiyyə və digər xidmətlərə çıxış barədə **müvafiq məlumatları özündə ehtiva edən məlumat broşuru(lar) readmissiya edilən şəxslərə verilməlidir**. Bu proses reinteqrasiya üçün çərçivə mexanizminin işlənib hazırlanması və rəsmi şəkildə təsdiq olunmasından *əvvəl* həyata keçirilməlidir. Diqqət mərkəzində olan konkret istiqamətlər yalnız səhiyyə xidmətləri barədə deyil, həm də insan hüquqlarının pozulması hallarında şikayətlərin verilməsi, təhsilə çıxış imkanları, məşğulluqla bağlı yardım, sosial yardıma çıxış imkanları və yaşayış yeri olmadıqda nə etməli olduqları barədə məlumatlara aid olmalıdır. Bu məlumatlar bir broşurdə və ya bir neçə xüsusi broşurda cəmləşdirilə bilər. Əlaqələndirici şəxslər bu broşurların işlənib hazırlanmasına cəlb edilməlidir. Geri qayıdanlar yerli xidmət qurumlarına ("ASAN xidmət" mərkəzləri, Məşğulluq mərkəzləri və s.) müraciət edərkən, aidiyyəti xidmətin əməkdaşları qayıdan şəxslərin təqdim etdiyi broşurları məlumat mənbəyi kimi istifadə edə və müraciət edən şəxsə nazirlik/dövlət orqanının müvafiq struktur bölməsinə istiqamətləndirə bilər. Yaxşı olardı ki, bu məlumatları onlayn qaydada (məsələn, DMX-nın internet səhifəsində) əldə etmək imkanı olsun. Yuxarıda da qeyd olunduğu kimi, artıq DMX bu məsələdə təşəbbüsü öz üzərinə götürmüşdür. MOBILAZE layihəsi isə məlumat broşurlarının hazırlanması və dərc olunmasında bütün zəruri dəstəyi göstərməyə hazırdır.

3. **Digər ölkələrin** readmissiya və reinteqrasiya sahəsindəki **ən yaxşı və yaxşı təcrübələri öyrənilməlidir.** Bu sistemlər haqqında daha dolğun təsəvvür əldə etmək üçün təlim səfərləri təşkil edilə bilər.

# IV. ƏLAVƏ: Azərbaycanda reinteqrasiyaya dair təlimatlar üçün təklif




*Azərbaycan Respublikasına qayıdış şəhadətnamələri Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən verilir.

**Azərbaycanda readmissiya və reinteqrasiya məsələlərinin təhlilinə dair hesabat**

© 2016 Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM)

Hazırkı hesabat Aİ-nin maliyyələşdirdiyi “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” (MOBILAZE) layihəsinin Geri Qayıdış və Reinteqrasiyaya dair 5-ci Komponenti çərçivəsində işlənib hazırlanmışdır. Hesabatın tərtib olunmasında məqsəd Avropadan Azərbaycana readmissiya edilən şəxslərin vəziyyətini öyrənmək və onların cəmiyyətə uğurlu reinteqrasiyası üçün tövsiyələrin hazırlanmasıdır.

ISO 9001:2008